**Faiq Ələkbərli**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

# Nizami Gəncəvinin irsində türklük və insanlıq məsələləri

## Giriş

Azərbaycan Türk şair-mütəfəkkiri, filosof Nizami Gəncəvinin dünyagörüşündə türklük və insanlıq bir birini daim tamamlamış, onun fəlsəfəsində türklük bir çox hallarda insanlığın sinonimi kimi ifadə olunmuşdur. Bu baxımdan hesab etmək olar ki, onun ümumilikdə insanlıq dəyərlərinə baxışı türk mədəniyyətinə, türk fəlsəfəsinə əsaslanmışdır. N.Gəncəvinin "Beşliy"ini diqqətlə tədqiq edəndə görürük ki, o, bu əsərlərində türk adət-ənənəsini, türk əxlaqını, bütün bunlarla bərabər insanlıq fəlsəfəsini izah etməyə çalışmışdır. Qeyd edək ki, N.Gəncəvinin dünyagörüşünün türklük və insanlıq əsasında obyektiv, elmi prinsiplərə əsaslanan şərhi, təfsiri ilk dəfə Azərbaycan Cümhuriyyətinin qurucusu, ictimai-siyasi və dövlət xadimi, mütəfəkkir Məhəmməd Əmin Rəsulzadə tərəfindən verilmişdi. Rəsulzadə N.Gəncəvinin türk fəlsəfi düşüncəsinə, türk mədəniyyətinə və insanlıq fəlsəfəsinə bağlılığını vaxtında görərək, bütün bunları "Azərbaycan şairi Nizami" əsərində dolğun şəkildə əks etdirə bilmişdi.

Nizami Gəncəvi demək olar ki, bütün əsərlərində dünyada müdriklik, əxlaqlılıq, nəciblik, alicənablıq, igidlik, paklıq və bu kimi digər xüsusiyyətləri türkə, türk millətinə aid hesab etmişdir. Filosof-şair "Sirlər xəzinəsi"ndə dəfələrlə türk düşüncəsinə, türk etiqadlarına müraciət etmişdi:

Türkə bənzər yasəmən çöldə qurub ağ çadır,
Çadırın ayparası Sürəyyaya nur saçır (1, 74).

Burada o, ağ yasaməni qıpçaqlarda (əngin çöllərdə) yurd salmış türklərin aypara şəkilli döyüşçü çadırına oxşadır və bu çadır guya, o qədər əzəmətlidir ki, Surəyya ulduzunadək ucalıb ona şölə verir. Nizami daha sonra yazır:

Lalənin bağrı qara – ərəb yavrusu kimi,
Türk yasəmən Yəməndə Süheyl ulduzu kimi! (1, 74).

"Türk yasəmən" ifadəsi Nizaminin ənənəvi məcazlarındandır və türkün qədim dövrlərdən əbədi bahar, təzəlik, paklıq rəmzi olduğuna işarədir. M.Ə.Rəsulzadə də yazır ki, Nizami Gəncəvi "Türk" dedikdə – gözəl, mərd, qəhrəman, döyüşçü, sərkərdə, həmçinin bilici, ər, rəhbər və başçı nəzərdə tutur; "türklük" dedikdə – vəfanı, düzgünlüyü və istədiyinə qovuşmağı nəzərdə tutur (4, 169). Eyni zamanda, Nizamidə türklük – qüvvət və qəhrəmanlıq simvoludur. Rəsulzadə yazır: "Hər halda türk məfhumuna, hisslərində, duyumlarında, fikir və düşüncələrində bu qədər yüksək yer verən bir Azərbaycan evladına, gözəl ilə ucaya – "türk", gözəllik və ucalığa – "türklük", gözəllik və ucalıq diyarına – "Türküstan" deyən bir şairə, yalnız farsca yazdığı üçün türk deməmək mümkündürmü? Əsla!!! Əsərlərini ərəbcə yazdıqları halda, türklük haqqındakı duyğuları ilə türk mədəniyyəti və vətənpərvərliyi tarixində müstəsna yer tutan Kaşğarlı Mahmudlar, Ğurlu Fəxrəddin Mübarəkşahlar, Zəməxşərli Mahmudlar nə qədər türkdürlərsə, Nizami də onlar qədər türkdür" (4, 176).

Ümumiyyətlə, N.Gəncəvinin əsərlərində "türk mənsubiyyəti" amili də xüsusilə önə çəkilmiş və Azərbaycan da türklərin qədim vətəni kimi açıq şəkildə qeyd edilmişdir. Xüsusilə, N.Gəncəvi «İskəndərnamə» poemasında Türk xalqlarının qədimliyini, onların adət-ənənələrini böyük ustalıqla əks etdirmişdir. Bu əsərində Makedoniyalı İskəndərin Qıpçaq ellərinə səfərindən bəhs edən N.Gəncəvinin məqsədi türklərin yalnız Azərbaycanda deyil, Orta Asiya və bütün Qafqaz ellərində qədim xalqlardan biri olduğunu sübuta yetirmək olmuşdu (3, 314). Ümumiyyətlə, N.Gəncəvinin bütün yaradıcılığı bizə onu deməyə əsas verir ki, o bir türk ölkəsində-şəhərində dünyaya gəlmiş, türk kimi böyümüş və türk adına xidmət etmişdir.

N.Gəncəvinin «İskəndərnamə» poemasında türk ölkəsi, türk əhalisi, türk yurdu və digər mənalarda tez-tez ifadə etdiyi «Xəzran», «Xəzər», «xəzərli», «xəzərlər», «Xəzər dağı» anlayışları da göstərir ki, o, bir türk filosofu olmuş və türk ölkəsində yaşamışdır. «Xəzər dağından Çin suyuna qədər Türklərlə doludur bütün bu yerlər» (3, 322) – yazan N.Gəncəvi birincisi, Azərbaycanın qədimdən türk torpağı olduğunu, ikincisi isə «Xəzər dağı» ifadəsini işlətməklə həmin dövrdə xəzərlər adlı türk etnosunun mövcudluğunu göstərmək istəmişdir. Başqa tərəfdən N.Gəncəvinin "İskəndərnamə"sində görürük ki, İskəndərə qarşı döyüşənlər arasında Xəzər, Xəzran ölkəsindən gəlmiş "xəzərlər" adlı türk tayfaları var:

Qarşıda bənizi qırmızı ruslar
Məcusun atəşi kimi parıldar.
Sağ qolu bəzəmiş Xəzran dəstəsi,
Soldan da ucalır Burtasın səsi (3, 324).

Əslində, «Xəzran» sözünün mənası Xəzərlər – «Xəzərlər ölkəsi» deməkdir. Hətta, N.Gəncəvi «İskəndərnamə»də bir türk etnosu kimi «xəzərli» terminindən də istifadə etmişdir (3, 44). N.Gəncəvi «Xəzər» və «Xəzərlər ölkəsi»ndən «Xosrov və Şirin»də də bəhs etmiş, Xəzər ölkəsinin Muğan tərəfdə olduğunu göstərmişdir. Deməli, «Xəzran» dövləti və xəzərlər e.ə. IV əsrin sonlarında hələ mövcud idi və ruslarla birgə İskəndərə qarşı döyüşdə iştirak ediblər.

Nizami Gəncəvinin dünyagörşüündə türklüklə farslığın, zərdüştlüklə islamlığın bir-birinə nə dərəcə də tərs müt\nasib olmasını da göstərməyə çalışmışdır. Məsələn, «Xosrov və Şirin» poemasında N.Gəncəvi açıq şəkildə yazırdı ki, türklərin köku bu millətin ulu əcdadı Alp Ər Tonqa, dini etiqadı isə Günəşə sitayişlə bağlıdır:

Əgəp o aydırsa, biz aftiabıq (Günəş – F.Ə.),
O Keyxosrovdursa, bizsə Əfrasiyabıq (Alp Ər Tonqa-F.Ə.)» (2, 119).

O, burada türklüklə farslığın bir-birindən necə fərqləndiyini göstərməyə çalışmışdır. Başqa sözlə, «Dərbənd dənizinin bir sahmanında», «Arrandan başlamış Ərmənə qədər» (2, 63) hökmdarlıq edən Məhin Banunun dilindən Nizami türklüyümüzün qədimliyini dəfələrlə ifadə etmişdir (2, 119). Deməli, Arran-Bərdə hökmdarı Məhin Banu özünü Əfrasiyabın, yəni türklərin nəsilindən hesab etmişdi. N.Gəncəvi də Məhin Banunun dilindən bu xalqın kökünün türk olması və türklərin Əfrasiyab (Alp Ər Tonqa) kimi hökmdarının olması ilə fəxr edir.

N.Gəncəvin zərdüşti Sasani hökmdarı Pərvizin Məhəmməd peyğəmbərin (s.) məktubuna qarşı göstərdiyi hörmətsizliyə münasibətində isə zərdüştlük və islamlıq arasında nə qədər fərq vardır. Hər halda Gəncəli Nizaminin atəşpərəst dininə tapınan fars Pərvizin peyğəmbərin məktubunu cırmasını «quduzluq» kimi qiymətləndirməsi təsadüfi deyildi.

Nizaminin yaradıcılığında zərdüştiliyin, atəşpərəstliyin birmənalı şəkildə pislənməsi, eləcə də Makedoniyalı İskəndəri bu dini dünyadan təmizlədyi üçün tərifləməsi (3, 54; 136), heç də təsadüf ola bilməzdi. Əgər Firdovsi «Şahnamə»də fars düşüncəsini, fars dini etiqadlarını, fars dünyagörüşünü təbliğ etmişdirsə, N.Gəncəvi də «Beşlik»də, o cümlədən «İskəndərnamə» poemasında türk həyat tərzini, türk düşüncəsini, türk dini etiqadlarını, türk adət-ənənələrini, türk dünyagörüşünü və s. böyük ustalıqla əks etdirmişdir.

Beləliklə, Rəsulzadə yazır ki, Firdovsi İran millətçiliyinin ideoloqu, fars oğlu fars olduğu kimi (4, 15), N.Gəncəvi də türk oğlu türk kimi bir Azərbaycan şairidir (4, 40). M.Ə.Rəsulzadəyə görə, Nizaminin iranlılıqdan, farspərəstlikdən uzaq olmasına nümunə «Xosrov və Şirin» poemasında Sasani hökmdarı Pərvizin Məhəmməd peyğəmbərin məktubunu cırmasını «quduzluq» adlandırması, «atəşpərəst hökmdarın yalnız maddi fəlakət və süqutunu şərh etməklə kifayətlənməyib, eyni zamanda İran imperiyasının mənəvi tənəzzülünün tarixçəsini də əsərinə daxil etməsi»dir (4, 164). Onun fikrincə, Nizaminin bir o qədər də ehtiyac olmadan peyğəmbərin Xosrovun yuxusuna girməsi, əlindəki qırmancla onu vurması, vəziri Büzürgümidin ona ərəb peyğəmbəri haqqındakı söhbəti, Məhəmmədin doğulduğu gün Kəsra tacının çökməsi və atəşkədələrin (atəşgahların) sönməsi kimi əhvalatları «Xosrov və Şirin» poemasına əlavə etməsi, türk ziyalısının farslıq təəssübündən, fars düşüncəsindən uzaq olmasıyla bağlı olmuşdu.

M.Ə.Rəsulzadə yazır ki, Nizaminin farspərəstlikdən uzaq olmasını göstərən kəskin dəlillərdən biri də atəşpərəstliyə düşmən olması idi: «Məcusilik, zərdüştilik və atəşpərəstlik Nizamidə daim zərərli və alçaq sayılır. Təkcə peyğəmbər və müsəlmanlar deyil, İskəndər belə atəşpərəstliyin düşmənidir. Kəyanilərin bütün idarələri içərisindən İskəndər yalnız atəşkədələri dağıdır. Hər hansı bir vilayətin düşmənləri İskəndəri bu vilayətə qarşı qaldırmaq üçün orada atəşpərəstliyin hələ yaşamaqda olmasından söz açırlar. Nizami İskəndəri şövqlə tərifləyərkən «dünyanı məcusilikdən təmizlədiyini» xüsusi bir razılıqla qeyd edir» (4, 165).

Rəsulzadənin fikrincə, farslığın ən böyük və ən parlaq ənənəsi zərdüştilik və atəşpərəstlik olduğu halda, fars şeirinin Firdovsidən sonra ikinci dirəyi olan Nizaminin həmin təlimə bu qədər düşmənçiliyi, mənfi münasibət bəsləməsi onda farslıq duyğusunun olmaması idi. M.Ə.Rəsulzadəyə görə, Nizami bütün duyğu və şüuru ilə müsəlmandır, tək Allaha inanır: «Təkallahlıq mövqeyindən də o hər cür ikilik və çoxluğu rədd edən bir «vəhdaniyyətçidir». Zərdüştiliyin xeyrin ayrı, şərin də ayrı mövcud olub öz aralarında vuruşan ikiallahlılıq sisteminə onun nə sufiliklə yetişdiyi Allah məfhumu, nə də daşıdığı xalis müsəlman əqidəsi uyğun gəlir» (4, 166). M.Ə.Rəsulzadə yazır ki, hətta Nizami üçün «qədim farslığın islama qarşı müxalifətinin bir ifadəsi» olan ismaililik «iranlı-fars» məzhəb kimi onun dilində bir söyüşdür. «Dediyim kimi deyilsə, ismaili olum» (4, 166).

Deməli, N.Gəncəvi qədim türklərin tanrıçılıq dini-fəlsəfi təlimində olduğu kimi təkallahlılıq dünyagörüşünə sahib olmuş və bütün hallarda dualist, politeist sistemləri inkar etmişdi. Bu da, bir daha göstərir ki, N.Gəncəvi XII əsrdə dualist fars düşüncəsinin, atəşpərəst fars ehkamçılığının, yaxud da islama qarşı yönəlmiş «Firdovsi kini»nin yox, qədim dövrdən etibarən türk düşüncəsinə hakim olan monoteizmin, türk dini etiqadlarının daşıycısı olmuşdur.

Azərbaycan Türk mütəfəkkiri Abdulla Şaiq də hesab edirdi ki, bu gün Türk ədəbiyyatının Türk dilindən çox geri olmasına da əsas səbəb, bir neçə əsr fars dilinin təsiri altında qalmağımız olmuşdur. Ancaq  Şaiq də Rəsulzadə kimi hesab edirdi ki, N.Gəncəvi də fars dilinin təsiri altında olmuş, ancaq türklük ruhunu heç də özündən uzaq tutmamışlar. Şaiq yazırdı: "Buna dəxi bir para tarixi səbəblər olduğu kimi, keçmiş böyük şairlərimizin də qüsurları görünməkdədir. Doğrudur ki, Xaqani və Nizami kimi müqtədir şairlərimiz fars lisanında törətdikləri bədiələr şərəfi yenə də bizlərə məxsusdur. Lakin tarixi-ədəbiyyatımızın parlaq səhiflərində onların əsərələri heç bir yer tutmayacaq və nami-mübarəkləri ədəbiyyatmızı zinnətləndirməyəcəyi təəssüf olunacaq şeylərdir. Ana dilində şeir söyləyən şairlərimizin bir çoxu da bütün-bütünə dilimizin ahəngini pozmuşlar. Cəli və təqlidi olaraq meydana çıxardıqları əsərləri nə ədəbiyatmızda və nə də camaatımızın əhvali-ruhiyyəsində başqalıqlar törətməyə müvəffəq olmamışdır. Odur ki, ədəbiyyatımız irəliləməmiş və haman bir halda donub qalmışdır" (7, 290-291).

İnsanlıq məsələsinə gəlincə, N.Gncəvinin əsərlərində bu problem daha çox Allah, Kainat və insan bütünlüyü kimi ifadə olunmuşdur. Məsələn, "Sirlər xəzinəsi" poemasında dəfələrlə nadanlığın əqlinköməyi ilə aradan qaldırılmasının zəruriliyi haqqında fikirlərə rast gəlrik. Burada «əql» kimi «nadanlıq» da iki məna daşıyır, həm insanın real aləm və özü haqqında biliyinin olmamasını ifadə edir, həm də insanın Allahın və dünyanın, Allah və özünün qarşılıqlı əlaqələrinin sirrlərini dərk edə bilməmək kimi mistik məna daşıyır.

"Azərbaycan fəlsəfə tarixi" 4 cildliyinin 1-ci cildində Nizami Gəncəvi  bölümüm müəllifi, əməkdar elm xadimi, f.e.d. Zümrüd Quluzadə yazır ki, idrak, yüksək mənəviyyat, insanın əzəmətinin rəhni olaraq eyni zamanda bu əzəmətdən irəli gəlir və ona əsaslanır, çünki insan məxluqatın tacı kimi yaradılıb. Onun fikrincə, N.Gəncəvi "Sirlər xəzinəsi" poemasında bu məsələləri ətraflı şəkildə şərh etmişdir. Z,Quluzadə yazır: "İnsanın kainatdakı yüksək mövqeyi onun mənəvi statusu ilə müəyyən edilir: o, yüksək əxlaqi keyfiyyətlərin daşıyıcısı, özündə tərbiyə edilməsi üçün şəxsən məsul olmalıdır. Nizami insanları pis əməllərdən, zorakılıqdan əl çəkməyə, həyalarını itirməməyə, səxavətli olmağa, azadlıq və ləyaqətlərini qorumaq naminə  aza qane olmağa çağırır. Humanist mütəfəkkir əxlaqın mənasını «səadəti bəsləmək və onu qoruyub saxlamaq»da ədalətin zəfər çalmasında görür. Poemanın səadətdən bəhs edən bölməsi  axırıncı bir ovuc toxumunu torpağa səpən qoca haqqındakı  ibrətli hekayə ilə  tamamlanır. Qocanın suyu

- alnının təri, beli isə - dırnaqlarıdır, lakin o, inanır ki, Allah ona bol məhsul göndərəcək çünki, İlahi ədalət özünü zəhmətin mükafatlandırılmasında göstərməlidir. Poemada biz xoşbəxtlik anlayışının birmənalı olmayan izahı ilə rastlaşırıq. Şair insanı gah bu dünyada səadətə dəlalət edən azadlığı və ləyaqətini qoruması naminə, gah da o biri dünyada xoşbəxt olmaq naminə aza qane olmağa çağırır" (8, 400-401).

Z.Quluzadənin də qeyd etdiyi kimi mütəfəkkirin insanpərvər, mürüvvətli cəmiyyət və onun şahı haqqındakı təsəvvürləri əsərdə çoxsaylı misallar və hekayələr vasitəsilə açılır: "Nizamiyə görə, mistik etik kamillik mənəvi və sosial kamilliklə bağlıdır, sosial münasibətlərdə isə kamillik və ədalət mütəfəkkiri xüsusilə narahat edirdi. Mütəfəkkirin sosial-etik görüşlərinin poema boyu təqdim və şərhi diqqətə layiqdir. İnsanpərvərliyin tərənnümü ilə başa çatan «Adəmin yaradılması haqqında»kı fəsildən sonra yer üzündəki şahları zülm və haqsızlıqdan əl çəkməyə və rəiyyətə qarşı ədalətli, xeyirxah olmağa çağıran hekayələr gəlir. Səciyyəvidir ki, poemada dərvişliyin də, şahlığın da mahiyyəti və zirvəsi insanpərvərlikdir. Nizami qəhrəmanı olan insanda Məhbubun yolunda məhəbbət, sədaqət və fədakarlıq dünyəvi ədalət, şər və zülmə qarşı yönələn, insan ləyaqəti və səadəti uğrunda mübarizliyin əzəməti birləşir. Qəhrəmanın özündə üç-mənəvi, intellektual və sosial idealı birləşdirən təsviri mütəfəkkir-şairin gələcək poemalarında ənənəyə çevrilir" (8, 403).

Nizami Gəncəvinin «Xosrov və Şirin»də də «Sirlər xəzinəsi» poemasında olduğu kimi diqqət kainat və insana, onların əlaqələrinə cəlb etmiş, «Xaliq və məxluq nə deməkdir» sualına cavab verməyə çalışmışdır. Ona görə Allahın yaratdığı – kainat, insan, ruh və əqlin ilk səbəbidir. Poemada Nizami dəfələrlə insanın Allaha məhəbbətinə müraciət edir və Allaha məhəbbəti insanın Allah yolunda özündən imtinası kimi təfsir edir. "İmtinanın yolunu isə insanın daim mənəvi intellektual təkmilləşməsində görür. Təsadüfi deyil ki, ilk baxışda, zahirən dünyəvi eşqə həsr edilmiş «Xosrov və Şirin»də etik problemlər, əxlaqi tərbiyənin intellektual kamilləşmə ilə vəhdəti xüsusi yer tutur. Bu məsələlərlə bağlı Z.Quluzadə yazır: "Poemada etik problemlərin şərhində əsas yeri «Xəmsə» üçün ənənəvi olan zəruri əxlaqi prinsiplər, «bəd ehtiraslar»la mübarizə, zorakılıq, zülm, qəddarlıq, hiyləgərlik, xəyanətkarlıq, yalançılıq, nadanlıq, təkəbbürlülük, acgözlük, qarınquluLuq, boşboğazlıq, laqeydlik və sair bu kimi keyfiyyətlərdən imtina barəsində təsəvvürlərin və tövsiyələrin açıqlanması tutur. İnsanın əxlaqi-intellektual kamiliyinin ali dərəcəsi onun Alaha məhəbbət naminə öz «mən»indən imtinası, özünü unutması, fədakarlığı ilə bağlıdır" (8, 413).

İnsanın özünü ifadəsi kimi bilik rəmzi olan sözə «Yeddi gözəl»də mütəfəkkir xüsusi yer verərək yazır: «O ki, həm yeni və həm qədimdir sözdür». N.Gəncəviyə görə, insandan sonra ondan yeganə xatirə qalan sözdür ki, insanın əbədiliyini təcəssüm etdirir. Azərbaycan Türk mütəfəkkiri Firudin bəy Köçərliyə görə, istənilən şair-mütəfəkkirin, ya da sadə bir insanın əsas silahı "Söz"dür ki, bunun ən mahir ustalarından biri olan N.Gəncəvinin yaradıcılığnda bunu özünə büruzə vermişdir. Köçərliyə görə dünyadan öncə də, dünyanın özünün də, dünyada nə varsa hamısının da, o cümlədən bütün məxluqatın da vücuda gəlməsinə səbəb "Söz" olmuşdur. Ona görə "Söz"ün meydanı o qədər vüsətlidir ki, onun sərhəddi və əndazəsi təsəvvürə gəlməz. O, yazırdı: "Sözsüz cümlə məsələlər və sirrlər aləmdə iləl-əbəd puşidə qalardı və insanın heyvanat və nəbatat qismindən artıq bir fərqi və təfavütü olmazdı və aləmdə bütün görünən nə varsa susan, dinməz xəzinə olub zühur etməzdi. Bəs, nə vaxtdan ki, dünya yaranıbdır, onda vüqua gələn əlamətlərin cümləsində sözdən bir əsər var. Nitq qutusunda söz xoşbəxt bir gövhəri-dilkəşdir və her şeyin iç dünyası ona bağlı olub, kəşfi-bəyanı ondan asılıdır. İnsanın fikrində yengi doğub təşkil bulan hekayələri ən əvvəlcə bilən və onları əlvan libas geydirib aləmə göstərən sözdür və nə qədər ki, dünyada söz həm əskidir, həm də yengi doğduqda yenə tər təzədir və Şeyx Nizaminin dediyi haqdır ki, bizim həyatımız, ölmümüz sözün varlığına və yoxluğuna bağlıdır" (9, 314).

Nizaminin «Leyli və Məcnun» poemasında da öz əksini tapmış yüksək humanizmini qeyd etmək lazımdır. Burada da insan, şəxsiyyət, onun hüquq və ləyaqətinin müdafiəsi probleminin, «Xəmsə»nin yüksək insapərvərlik tərənnüm etdiyi başqa poemalarda olduğundan daha bariz şəkildə qoyuluşu ilə rastlaşırıq. Bu poemada da Nizaminin etik-sosial idealı – mənəvi cəhətdən, kamil, üzvləri arasında məhəbbət və insanlığın hökm sürdüyü harmonik cəmiyyətdir (8, s.418).

Nizami yazırdı:

Acizlik daxili əziyyət (əzab) gətirər.
Zülmə qatlaşmaq zillət gətirər.
Tikan kimi nizə çiynində olsun ki,
Gül xərmənini (dəstəsini) bağrına basasan.
Ah və təəssüf insanı üzər.
Adəm övladı ah, təəssüfdən ölər.
Və ya:
Nə vaxtadək buz kimi donub qalmalı,
Suda ölü siçan kimi qalmalı.
Gül kimi yumşaq təbiətli olmağı tərk et!
Bənövşə kimi ikiüzlü olmaqdan əl çək!
Elə yer var ki, tikan olmaq lazımdır.
Divanəlik [belə] işə yarayır.

Nizamiyə görə, özünü dərk edə bilməyən insan varlığın dərkində də nadandır, yəni "öz varlıqlarından bixəbər olan kimsələr, bu qapıdan necə giriblərsə, o qapıdan da elə çıxırlar:

Əqli-küll ki, Səndən yol tapmış,
Sənin heybətindən Sənə heç baxa bilmir

Deməli, yalnız əxlaqi və əqli kamillik pillələri ilə Allahın mərifəti (mistik idrakı) səviyyəsinə çatmaq mümkündür. Z.Quluzadə də yazır ki, Nizaminin bütün poemalarında İnsanın kamilliyə çatmasında çox böyük əhəmiyyətə malik olduğunu göstərdiyi əqlin, intellektual başlanğıc kimi rolunun kiçildilməsindən deyil, mənəvi başlanğıcın insan həyatında daha mühüm rol oynadığından, bütövlükdə insan fəaliyyətinin mənəvi dəyərlərə tabe olmasından gedir (8, 423).

N.Gəncəvi "İskəndərnamə"də də nəfs, onun Allah, dünya və insanla əlaqəsi probleminə toxunmuşdur. Z.Quluzadə yazır ki, Nizamiyə görə, nəfsi insana Allah verir və insanın ölümündən sonra o, yenidən İlk başlanğıca - Allaha qayıdır: "Onun ilahi təbiəti vardır və buna görə də Hind müdrikinin onu odla müqayisə etməsi mütəfəkkirə görə səhv və günahdır. Poemanın başqa bir yerində Nizami yazır ki, nəfs sudan və ya torpaqdan deyil, ilahi nurdan ibarətdir. «O, həyat mənbəyidir». Lakin nəfsin (canın) cisimdən (bədəndən) ayrılması nəfsin ölümü demək deyil; insan onu Allaha qaytarır və nəfsin mövcudluğu itmir" (8, 436).

Nizami Gəncəvinin dünyagörüşündə mühüm yer tutan məsələlər arasında kamil insan problemi ilə yanaşı, ideal cəmiyyət və ədalətli dövlət ideyasıdır. Məsələn,"Qarı ilə Sultan Səncərin hekayəti"ndə Nizami Gəncəvi türk hökmdarını ədalətli və vicandlı olmağa çağırır. Nizamiyə görə, türk hökmdarları heç bir zaman zalım və ədalətsiz olmamışlar, Sultan Səncərin buna uyğun olmayan davranışı isə türk adına şərəf gətirmir. Ona görə də, Nizami bir qarının dilindən türk hökmdarı Sultan Səncəri ədalətsiz işlərinə görə belə ittiham edir:

Dağ kimi ucalmışdı bir zaman Türk dövləti,
Sarmışdı məmləkəti ədaləti, şəfqəti.
Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san,
Demək, sən türk deyilsən, yağmaçı bir hindusan (1, 111).

Fikrimizcə, burada N.Gəncəvi bir tərəfdən Sultan Səncərin timsalında türk hökmdarlarını türk düşüncəsinə, türk adət-ənənələrinə əməl etməyə çağırmaqla yanaşı, onları pis əməllərdən çəkindirməyə çalışmış və başqa tərəfdən Azərbaycanda bir Türk dövlətinin hakim olduğuna işarə etmişdir.

Ədalətli cəmiyyət və ideal dövlət anlayışını şərh edərkən N.Gəncəvinin müvafiq baxışlarına müraciət edən Rəsulzadə böyük şair-ftlosofun «İskəndərnamə» də milli-demokratik dövlət nəzəriyyəsini təhlil etməyə çalışmışdır. Rəsulzadə yazır: «Nizamiyə görə, dövlət başçısı «sürüyə cavabdeh bir çobandır». Hətta bundan da məsuliyyətli bir mövqedədir. Başdakı beyin bədənin bütün üzvlərini idarə etməkdə hansı mövqedədirsə, dövlət başçısı da onun kimidir. «Əl ayağın

fəaliyyətindən razı deyilsə, cavabdeh başdır». Fərd dövlətə münasibətdə müəyyən vəzifələri icra etməyə borcludur. Amma fərd hər hansı dövlətdə yalnız vəzifə daşımağa borclu deyil, həm də bir sıra hüquqlara malikdir» (5, 213).

M.Ə.Rəsulzadə dövlətdə fərdin rolunu xüsusilə dəyərləndirməklə yanaşı, onun vəzifələrini də göstərir. Dövlət başçısı dövləti idarə edən bir şəxs kimi fərdə nisbətən daha məsuliyyətli olmalıdır. Ancaq bu o demək deyil ki, fərd məsuliyyəti dövlət başçısının, və yaxud vəzifə sahiblərinin üstünə ataraq tamamilə geri çəkilməlidir. Ona görə də, Rəsulzadə N.Gəncəvi kimi dövlətin idarə olunmasında məsləhətləşmələri önəmli sayır: «Nizamiyə görə, iqtidar ilə təmkin bir-birini tamamlayan şeylərdir: «Güclü ol, amma təmkinini əldən vermə». Dövlətin idarə olunmasında şair məsləhətləşmə tərəfdarıdır» (5, 215).

Rəzulzadəyə görə, Nizaminin baxışlarına uyğun dövlət idarəsini reallaşdıran hökmdar İskəndərdir. Rəsulzadənin Nizaminin İskəndərinə və onun işlərinə xüsusi yer verməsi təsadüfi deyil. O, Nizaminin «İskəndərnamə»də yaratdığı ideal cəmiyyəti özü də görür: «İskəndərin şəxsində Nizami biliyə, hikmətə və sənətə bağlı olan ziyalı bir hökmdar görür. Filosoflar, alimlər və ədiblər tərəfindən əhatə olunmuş bu hökmdarın özü də xarakter (səciyyə), cəsarət və qəhrəmanlığı ilə bərabər, alim, filosof və tədbirli bir insan kimi tanınır. Ona müavinlik edən vəzir Yunanıstanın ən məşhur filosofu Ərəstundur (Aristotel). Sarayında Yunanıstanın bütün tanınmış filosof və alimlərindən təşkil olunmuş Dövlət Şurası tipli yüksək bir məclis vardır» (5, 216).

Fikrimizcə, N.Gəncəvinin «İskəndərnamə»ni yazmaqda məqsədi yalnız Makedoniyalı İskəndərin timsalında adil hökmdarı, ədalətli cəmiyyəti təsvir etmək deyil, eyni zamanda türk millətinin qədimliyini, türk inanclarını, adət-ənənələrini və s. dünyaya tanıtdırmaq olmuşdu. Bu baxımdan N.Gəncəvinin Makedoniyalı İskəndəri türk dünyasının bir hissəsi olan Azərbaycana, daha sonra Qıpçaq elinə aparması təsadüfi ola bilməzdi. N.Gəncəvinin burada başlıca məqsədi Azərbaycanda, Qafqazda, Orta Asiyada və b. yerlərdə yaşayan türklərin adət-ənənələrini, mədəniyyətini, düşüncələrini və s. açıqlamaq olmuşdu. Məsələn, İskəndəri Qıpçaq ellərinə aparan N.Gəncəvi yazır ki, Qıpçaq türklərinin adət-ənənələri böyük fatehi mat qoyur. Xüsusilə, qadınların üzlərini örtməməsi və kişilərdən qaçmaması İskəndəri təəccübləndirir. İskəndər qıpçaqların ağsaqqallarını başına yığaraq bu adətlərindən əl çəkməyə çağırır: «Örtülü dedi çöl qıpçaqlarına: «Üzünü gizləmək xoşdur qadına» (3, 314). Qıpçaq türkləri isə İskəndəri başa salırlar ki, onlar adətlərini dəyişməyəcəklər, makdeoniyalı fateh isə hiylə işlətməklə istəyinə çatır.

M.Ə.Rəsulzadəyə görə, ideal cəmiyyətdə zor heç nəyi həll etməməlidir. Demokratik cəmiyyət M.Ə.Rəsulzadənin dövlət siyasətinin tərkib hissəsi idi. Bu onun düşüncələrinə hakim kəsilib və sosial-fəlsəfi dünyagörüşünə mühüm təsir edib. O, Nizaminin də axtarıb tapdığı bu ideal dövlət fəlsəfəsini fikirlərində inkişaf etdirir: «Hər böyük və həqiqi sənətkar kimi Nizami də millilik və vətənsevərlik xüsusiyyəti daşımaqla bərabər, yaratdığı obrazlarla təlqin etdiyi fikir meydanında milli çərçivədən kənara çıxımış, bütün bəşəriyyətə şamil olan duyğularla həyacanlanmış, millətlər və ölkələrin fövqündə olduğu kimi, dövrlər və əsrləri yarıb keçən yüksək və dünyaya şamil bir qayğıya cavab verə biləcək «söz»ü tapmağa çalışmışdır. Bizim qənaətimiz ilə bu «söz» İskəndərin möcüzəsində tapılmışdır. Bu möcüzə bugünkü bəşəriyyətlə birlikdə bizim də gerçəkləşməsini görmək istədiyimiz idealdır. Millətlərə yalnız mənəvi avtoritetlə nüfuz etmək, ruhlarını anlayaraq varlıqlarına qarşı ehtiram etmək» (5, 29-30).

M.Ə.Rəsulzadə Nizaminin yaratdığı həmin ideal cəmiyyətin Sovet dövründə kommunizm quruluşuna oxşadılmasına etiraz edirdi. M.Ə.Rəsulzadə, Nizaminin ideal cəmiyyəti ilə bolşeviklərin kommunizm ideologiyası arasında heç bir oxşarlığın olmadığını ortaya qoyurdu: «Nizaminin «Cənnət şəhər»i dindardır, sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanıyır, o birisi isə rədd edir. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük təbliğat silahıdır. Birincidə sevgi əsas ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə təhlükəsiz yaşadığı halda, ikincidə insanlar daim ölüm qorxusu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır. Birinci oğurluq nədir bilmir, ikincidə isə oğurluq ən qanlı polis rejimidir. Birinci casusluq bilməz, ikincidə hamı casusdur. Birinci silahsız və dindar, ikinci,

təpədən-dırnağa qədər silahlıdır. Birinci, fitnə nədir bilməz, ikinci, bütün dünyanı bürüyəcək bir fitnə yuvasıdır. Sözün qısası: dini əxlaqa və ictimai anlayışa əsaslanan «Nizami sosializmi» ilə dini rədd edən və siniflər qovğasını əsas tutan qanlı «rus sosializmin» bir-birinə bənzər heç bir tərəfi yoxdur!.. Fəqət, bizim fikrimizcə, sevgi ilə nifrət, rəhmət ilə lənət nə qədər bir araya sığa bilərsə, Nizami ilə bolşeviklər də o qədər birgə ola bilərlər!…» (5, 211-212). Bununla, M.Ə.Rəsulzadə bolşeviklərin öz aləmlərində N.Gəncəvinin ideal cəmiyyətinə bənzətdiyi kommunizmin əsassız olduğunu bəyan edirdi. Onun fikirincə, Nizaminin ideal cəmiyyəti dinsiz Sovet İmperiyası ilə deyil, Azərbaycan Cümhuriyyəti ilə bərabər tutula bilər.

Qeyd edək ki, Sovetlər Birliyi dövründə akademik Heydər Hüseynov Nizami Gəncəvinin cəmiyyət və dövlətlə bağlı baxışlarına kommunist ideologuyası çərçivəsində yanaşmışdır. Hətta, Hüseynov Gəncəvidə aterialist elementler axtarıb tapmağa çalışmış, onun mürəkkəb təkamül prosesində əvvəlcə idealist olduğunu, ancaq zamanla materializmə meyil göstərdiyini iddia etmişdir. O, yazırdı: "Nizaminin ilk poeması olan "Sirlər xəzinəsi"ndə idealist fəlsəfə öz möhürünü vurmuşdur, o biri poeması "Yeddi gözəl"də idealizmin təsiri hələ də duyulur, lakin sonralar Nizaminin fəlsəfi görüşlərinin təkamülündə dönüş baş verir və o, materializm və idealizm arasında tərəddüd etməyə başlayır. Nizami empirizm (sensualizm) və rasionalizm arasında əksliyi aradan qaldırmağa çalışırdı. XII yüzillikdə hər yerdə və xüsusilə metafizik konsepsiyanın ağalıq etdiyi, sxolastikanın və dini ehkamların hökm sürdüyü Şərqdə Nizaminin dünyagörüşü dialektika elementlərini özündə ehtiva etməsi ilə aşkar seçilirdi" (6, 17).

H.Hüseynov dövrünün şərtlərinə uyğun olaraq Nizaminin sosial görüşlərinin tarixi məhdudluğundan bəhs etmiş, onun idealistliyinə tənqidi yanaşmışdır: "O, insan cəmiyyətinin inkişafı prosesini idealistcəsinə anlayır. Sosial bərabərsizlikdən danışarkən, Nizami onu doğuran əsas səbəbləri göstərə bilmir. Bununla belə, o hüquq, bərabərliyi ideyasını təbliğ edir və insanları əməkdaşlığa, xeyirxah işlər görməyə, şərlə mübarizə aparmağa dəvət edir" (6, 18).

Onun iddiasınca, Nizami bütün hökmdarlara qarşı çıxış etmişdir, guya ona görə ki, şahların hamısı qəddarlqıda bir-birinə bənzəyirmiş, sadəcə bəziləri gözdən pərdə asmaq üçün ədalətdən çox dəm vururmuşlar. O, yazırdı: "Nizami xalqın özü tərəfindən idarə edilən cəmiyyəti gömək arzusunda idi. "İskəndərnamə" poemasında deyilir ki, onun qəhrəmanı İskəndər dünyanı fəth etdikdən sonra şimalda azad və xoşbəxt yaşayan bir xalqla qarşılaşır, yəni orada Nizaminin axtardığı və arzu etdikləri həyata keçmişdi" (6, 19).

Bizcə, Hüseynov N.Gəncəlinin hökmdarın məziyyəti ilə bağlı fikirlərini bir qədər doğru ifadə etməmişdir. Gəncəlinin istədiyi ədalətli şah və ədalətli cəmiyyət idi. Yəni ya şah ədalətli olub cəmiyyəti ədalətlə idarə edəcək, ya da cəmiyyətin özü elə bir inkişaf səviyyəsində olacaq ki, şah olmadan da cəmiyyəti ədalətli idarə etmək mümkün ola biləcək idi. O, yazırdı: "Nizami yaradıcılığının ilk dövründə müdrik və ədalətli padşah ideyasını irəli sürür, sonuncu "İskəndərnamə" poemasında isə o, özünün sosial utopiyasını – varlılara və kasıblara bölgünün, zorakılığın və məcburiyyət aparatının olmadığı ideal cəmiyyətini yaradır. Bu cəmiyyətdə tüfeyli ünsürlər yoxdur. Məhkəmələr də yoxdur, çünki burada oğurluq, qarət, qətl və başqa cinayətlər baş vermir. Bu cəmiyyətin sakinləri müharibə etmirlər, "qan tökmürlər". Bütün vətəndaşlar eyni hüquqlardan istifadə edirlər" (6, 20). Demək ki, N.Gəncəlinin ideal cəmiyyətində hər kəs öz işini bilir, artıq burada zülmkar məmurlara və ikiüzlü ruhanilərə ehtiyac qalmır. Başqa sözlə, Allaha sitayiş var ancaq məbədlər və ruhanilər yoxdur, cəmiyyətin başçısı var ancaq qorxu və zülmkarlıq yoxdur. H.Hüseynova görə, Nizaminin təsvir etdiyi ideal cəmiyyət həyatının bu mənzərəsi onun feodal cəhalətpərəstliyi əleyhinə etirazını, ədalət və ağlın təntənəsinə çalışdığını göstərirdi: "Lakin öz tarixi məhdudluğu və tarixi idealist anlamı üzündən Nizami müasiri olduğu ictimai quruluşu dəyişməyin düzgün yollarını görmür" (6, 20).

**Nəticə**

N.Gəncəvinin irsi bir daha təsdiq edir ki, orta əsr Azərbaycan Türk ziyalılarının əksəriyyəti (Xaqani, Qul Əli, F.Nəimi, İ.Nəsimi, M.Füzuli və b.) islamaqədərki dini-fəlsəfi təlimlərdən üstünlüyü tanrıçılığa, eləcə də türk adət-ənənələrinə, türk mədəniyyətinə vermiş, etnik mənsubiyyətlərinin türk olduğunu göstərmiş və zərdüştilikdən, fars atəşpərəstliyindən çox uzaq olmuşlar.

Bu baxımdan hazırda bəzi elmi ədəbiyyatlarda Azərbaycanda orta əsrlərdə qədim dini-fəlsəfi təlimlərin – zərdüştiliyin, atəşpərəstliyin davamı kimi yalnız məzdəkilik, xürrəmilik və b. olması haqqında qeyd olunan mülahizələr fikrimizcə, doğru deyildir. Hər halda bu iddia da bulunan tədqiqatçılar, müəlliflər nədən onu da qeyd etmirlər ki, Azərbaycan türk xalqının qədim dinlərinin – şamanizm, tanrıçılıq, «maqların təlimi» və b. davamı kimi orta əsrdə islam qəbul olunmuş, eləcə də islam əsasında yaranmış sufilik, hürufilik və başqa təriqətləri Azərbaycan türk ziyalıları öz qədim dinləri ilə uzlaşdırmağa çalışmışlar.

**İstifadə olunmuş mənbə və ədəbiyyat**

1. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: «Lider», 2004.
2. Gəncəvi N. Xosrov və Şirin. Bakı: Lider, 2004.
3. Gəncəvi N. İskəndərnamə. Bakı: «Lider»,2004.
4. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, «Çıraq» nəşr., 2008.
5. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991
6. Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, «Şərq-Qərb», 2007
7. Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı, "Tural-Ə" NPM, 2002
8. Quluzadə Z.Ə. Nizami Gəncəvi//Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı: "Elm", 2014 (kitabın məsul redaktoru f.e.d. Z.Ə.Quluzadə)
9. Köçərli F.Azərbaycan türklərinin ədəbiyyatı.2 cilddə,2-ci cild. Bakı, Avrasiya-Press, 2005

**Faiq Ələkbərli**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

**Nizami Gəncəvinin irsində türklük və insanlıq məsələləri**
**Xülasə**

Məqalədə XII əsrdə yaşamış Azərbaycan-Türk mütəfəkkiri, filosofu Nizami Gəncəvinin irsində türklük və insanlıq məsələləri araşdırılmışdır. Müəllif burada göstərir ki, N.Gəncəvi «Xəmsə»sin də («Beşliy»in də) türk düşüncəsini, türk adət-ənənəsini, türk əxlaqını və insanlıq fəlsəfəsini təbliğ etmişdi. Eyni zamanda, böyük filosofun əsərlərində öz yerini tapan türklüyün ilk dəfə tanınmış mütəfəkkir Məhəmməd Əmin Rəsulzadə tərəfindən «Azərbaycan şairi Nizami» əsərində geniş və tutarlı şəkildə sübut edilməsi də məqalədə öz əksini tapmışdır. Müəllifin fikrincə, N.Gəncəvinin bir türk şairi olması konseptual şəkildə M.Ə.Rəsulzadə tərəfindən tədqiq olunmuş, şairin türklüyü elmi əsaslarla sübut edilmişdir.

**Фаик Алекберли**
**Доктор философии по философии, доцент**

**Проблемы тюркизма и гуманности в наследии Низами Гянджеви**
**Резюме**

В статье исследуются вопросы тюркизма и гуманности в наследии азербайджано-тюрского мыслителя и философа XII века Низами Гянджеви. Автор показывает здесь, что Н. Гянджеви пропагандировал в «Хамсе» («Пятерица ») тюрскую мысль, тюрские традиции, тюрскую мораль и философию гуманизма. Вместе с тем, в статье также отражен тот факт, что тюркизм, нашедший свое место в творчестве великого философа, прежде всего обширно и основательно доказал известный мыслитель Мамед Эмин Расулзаде в его произведении «Азербайджанский поэт Низами». По мнению автора, М.Э.Расулзаде концептуально исследовал тот факт, что Н. Гянджеви был тюрским поэтом и тюркизм поэта был доказан на научных основаниях.

**Faig Alakbarli**
**Ph D, docent**

**Issues of Turkism and humanity in the legacy of Nizami Ganjavi**

**Summary**

The article investigates the issues of Turkism and humanity in the heritage of the 12th-century Azerbaijani-Turkic thinker and philosopher Nizami Ganjavi. The author shows here that N.Ganjavi promoted Turkic thought, Turkic traditions, Turkic morality and philosophy of humanism in "Khamsa". At the same time, the article also reflects the fact that Turkism, which found its place in the work of the great philosopher, was firstly extensively and thoroughly proved by the famous thinker Mahammad Amin Rasulzade in his work "Azerbaijani poet Nizami". According to the author, M.A.Rasulzadeh conceptually investigated the fact that N. Ganjavi was a Turkic poet and the Turkicism of the poet was proved on scientific evidence of author.